# Belə faydalı görüşlər QHT-lərin fəaliyyəti üçün böyük stimuldur

***Bu gün vətəndaşların dövlətin işinə ictimai nəzarət həyata keçirməsi üçün imkanlar yaradılır. Prezident İlham Əliyev son çıxışlarında bir neçə dəfə bu məsələyə toxunaraq ictimai nəzarətin gücləndirilməsi vətəndaş cəmiyyətinin fəallığını önə çəkib. Əlbəttə ki, məqsəd vətəndaş cəmiyyətini dövlətin idarə olunmasında iştiraka cəlb etməkdir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin QHT sədrləri ilə onlayn görüşlərinin keçirilməsi də bu istiqamətdə işin səmərəliliyini artırmaq məqsədi daşıyır. Bu fikirləri Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə bildirib.***



O deyib ki, demokratiyanın özülünü təşkil edən birgə fəaliyyət vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra milli maraqlara əsaslanan demokratik quruculuğa nail oldu. Vətəndaş cəmiyyəti quruculuğu prosesi də məhz bu dəyərlər üzərində bərqərar oldu və bu proses dinamik baş verdi. Bugünlərdə müxtəlif istiqamətlərdə fəaliyyət göstərən QHT rəhbərləri ilə artıq üçüncü mühüm görüşün keçirilməsi də onu göstərir ki, dövlətimiz vətəndaş cəmiyyətinin inkişafında maraqlı olmaqla yanaşı, eyni zamanda öz dəstəyini əsirgəmir. Görüşlərdən biri də beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət göstərən QHT-lərlə oldu və mən də DFJD sədri olaraq bu görüşdə iştirak etdim. Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevin moderatorluğu ilə keçirilən görüşdə hər bir QHT rəhbəri beynəlxalq əməkdaşlıq, xaricdə Azərbaycanla bağlı həqiqətlərin yayılması və s. istiqamətlərdə fikir və təkliflərini bildirdi. Mən də qeyd etdim ki, beynəlxalq aləmdə KİV vasitəsilə mübarizə aparmaq və media dayaqlarımızı gücləndirmək üçün xarici ölkə mediası ilə əlaqələri sıxlaşdırmaq lazımdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev də görüş əsnasında bildirdi ki, dövlət başçısının rəhbərliyi ilə ölkəmizin qətiyyətli və milli maraqlarımızı əsas tutan siyasət apardığını görürük. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə ciddi nüfuza malik olan ölkəyə çevrilib. Hazırda dünyanın 120 ölkəsinin üzv olduğu Qoşulmama Hərəkatına Prezident İlham Əliyevin sədrlik etməsi beynəlxalq aləmin ölkəmizə göstərdiyi yüksək etimadın növbəti təzahürüdür. Prezidentin köməkçisi dövlət başçımızın rəhbərliyi ilə Azərbaycanın hücum diplomatiyası siyasəti yürütdüyünü və bütün önəmli beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini müdafiə etdiyini deyib. Prezidentin köməkçisi eyni zamanda bu görüşün əhəmiyyətinə toxunaraq QHT rəhbərlərini dinləmək, onların beynəlxalq əməkdaşlıq istiqamətində fikir və ideyaları, həmçinin, layihə təklifləri ilə yaxından tanış olmaq istədiyini diqqətə çatdırıb.

F.Hüseynzadə görüşdə bir neçə əhəmiyyətli təkliflə çıxış etdiyini də bildirdi: "Təklif etdim ki, xarici dövlətlərdə və xarici ölkələrin domenləri altında media portalları və televiziya kanalları yaradılmalı və yaxud sayt alınmalıdır. Həmçinin, xarici ölkələrdəki nüfuzlu bloggerlərlə Azərbaycanın təbliği üçün layihələr keçirmək olar. Daha bir təklifim bu oldu ki, Azərbaycanı sevən əcnəbiləri tapıb, onların potensialından xaricdə ölkəmizin müsbət imicinin formalaşdırılmasında yararlanmaq mümkündür. Xatırladım ki, bizim təşkilat tərəfindən bu istiqamətdə təkliflər paketi hazırlanıb. Biz artıq bu təkliflərimizi AR Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasına və digər aidiyyəti qurumlara göndərdik".

Təşkilat sədri belə faydalı görüşlərin keçirilməsinin QHT-lərin fəaliyyəti üçün həm də stimul olduğunu vurğulayıb. O əlavə edib ki, bu, eyni zamanda QHT-lərin məsuliyyətini artırır. Bütün bunları həyata keçirməklə Azərbaycan demokratikləşmə prosesində, eləcə də dövlət–vətəndaş münasibətlərində növbəti mərhələyə qədəm qoyur. Çünki dövlət, idarəçilikdə vətəndaşları üçün nə qədər açıq olduğunu göstərir.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 2 sentyabr.- S.5.